**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

**Əlyazması hüququnda**

**SEVDA ŞIXSEYİD qızı MÜTƏLLİMOVA**

# HACI XANMƏMMƏDOV YARADICILIĞININ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

**6213.01 – Musiqi sənəti**

**sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2018**

*Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasında “Musiqinin tarixi və nəzəriyyəsi” kafedrasında yerinə yetirilmişdir.*

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Akif Nüsrət oğlu Quliyev**<br>Azərbaycan Respublikasının<br>Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Cəmilə İsmayıl qızı Həsənova**<br>sənətşünaslıq üzrə elmlər doktoru, professor<br><br>**Əfsanə Ağayar qızı Babayeva**<br>sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |
| **Aparıcı təşkilat:** | **Gəncə Dövlət Universiteti**<br>**“Musiqi fənnləri” kafedrası.** |

Müdafiə 14 dekabr 2018-ci ildə saat 12:00-da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat __ noyabr 2018-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasının xalq artisti, görkəmli bəstəkar, pedaqoq, professor Hacı Xanməmmədov (1918-2005) Azərbaycan musiqi mədəniyyətində özünəməxsus layiqli yer tutmuşdur. Bəstəkarın musiqi irsinə, onun dərin milli ruhlu əsərlərinə musiqi ifaçılığında və musiqişünaslıqda daim maraq özünü göstərir ki, bu da bizim Hacı Xanməmmədovun yaradıcılığına müraciətimizə təkan vermişdir.

Azərbaycan musiqişünaslığında bəstəkarlıq məktəbinin ayrı-ayrı nümayəndələrinin yaradıcılığının müxtəlif aspektlərdən öyrənilməsi aktual mövzu dairəsi kimi formalaşmışdır. Bu baxımdan Hacı Xanməmmədovun yaradıcılığının, onun özünəməxsus bəstəkarlıq üslubunun tədqiqi aktual məsələlərdən biri kimi önə çəkilir.

Hacı Xanməmmədov musiqi sənətinin bir çox janrlarında parlaq əsərlər yaratmışdır. Bəstəkarın tar ilə simfonik orkestr üçün 5 Konserti, kamança və orkestr üçün Konserti, arfa ilə simfonik orkestr üçün Konserti, "Bir dəqiqə", "Bütün ərlər yaxşıdır" musiqili komediyaları, xalq çalğı alətləri orkestri üçün "Simfoniyetta", "Azərbaycan eskizləri", "Bayram", "Azərbaycan" süitaları, "Əlimdə sazım ağlar" poeması, bir-birindən təravətli mahnıları - "Yaşa könül", "Getmə amandı", "Qurban olduğum", "Telli", "Ceyran", "Güllü", "Qarşıdan bir sona keçdi", "Qadan alım" və s., instrumental-kamera musiqisi, ansambl üçün miniatürləri musiqi xəzinəmizi zənginləşdirmişdir.

H.Xanməmmədov bir çox janrlara müraciət etsə də onun yaradıcılığında instrumental musiqi, xüsusilə orkestr musiqisi üstünlük təşkil edir. Bu istiqamətdə onun instrumental konsertləri və xalq çalğı alətləri orkestri üçün əsərləri əhəmiyyətlidir və Azərbaycan musiqisinin inkişafında mühüm rol oynamışdır.

Özünəməxsus bəstəkarlıq dəst-xəttinə malik sənətkar kimi Hacı Xanməmmədovun yaradıcılığının dərin kökləri Azərbaycanla, onun mədəniyyəti və xalq musiqisi, təbiəti və musiqi ənənələri ilə sıx bağlıdır. Bəstəkarın əsərləri Vətənimizin, müasirlərimizin həyatı, arzuları haqqında fikirləri kimi qəbul edilir. H.Xanməmmədovun musiqisi üçün səciyyəvi olan nikbinliyin, humanizmin, yüksək əxlaqın köklərini doğma incəsənətin dərinliklərində axtarmaq lazımdır. Onun yaratdığı lirik və dramatik obrazlar məhz Azərbaycan xalq musiqisinin köklərindən qidalanmışdır.

H.Xanməmmədovun əsərləri öz musiqi dilinə, psixoloji təsir qüvvəsinə görə dərin milli ruhludur. Bəstəkar özünəməxsus üsullarla Azərbaycanın milli, klassik peşəkar ənənələrini bacarıqla üzə çıxarır. Onun melodik

dili xalq vokal və instrumental musiqinin mahnı və rəqs, muğam və aşıq havaları kimi tiplərinin vəhdətindən əmələ gəlir.

H.Xanməmmədovun bədii üslubunun özünəməxsusluğu, Azərbaycan xalq musiqisinə dərin köklərlə bağlı olması və dünya musiqi ənənələrindən yaradıcılıqla bəhrələnməsi müraciət etdiyimiz mövzunun aktuallığını şərtləndirir. Dissertasiyada Azərbaycanın musiqi mədəniyyətinin inkişafı kontekstində H.Xanməmmədovun yaradıcılıq üslubunun təkamülünün, əsərlərinin bədii konsepsiyası ilə musiqi vasitələrinin qarşılıqlı əlaqəsinin araşdırılması aktual bir məsələ kimi qarşıya qoyulur.

**Mövzunun işlənmə səviyyəsi.** Hacı Xanməmmədovun yaradıcılığı musiqişünasların diqqət mərkəzində olaraq, müxtəlif tədqiqatçıların müraciət etdiyi mövzular sırasındadır. Bəstəkarın yaradıcılığında əldə etdiyi nailiyyətlər, ayrı-ayrı əsərləri ilə bağlı elmi təhlillər bir sıra tədqiqatlarda – ayrı-ayrı müəlliflərin kitabça və elmi-publisistik məqalələrində, eyni zamanda, dissertasiyalarda öz əksini tapmışdır.

Bu baxımdan bəstəkarın yaradıcılığına həsr olunmuş bir neçə elmi işləri göstərə bilərik. Bunlardan musiqişünas-alim Ramiz Zöhrabovun "Hacı Xanməmmədov" kitabçasıvə "Bəstəkarlarımız haqqında söz" kitabında "Konsertlər müəllifi" məqaləsi[1] monoqrafik tədqiqatlardan biri kimi qeyd olunmalıdır. Bu nəşrlərdə bəstəkarın yaradıcılıq yolunun mərhələləri və əsas sahələri maraqlı faktlarla işıqlandırılmış, onun vokal yaradıcılığının diqqətəlayiq cəhətləri önə çəkilmişdir.

Musiqişünas-alim Zemfira Qafarovanın[2] "Hacı Xanməmmədov" kitabçasında bəstəkarın həyat və yaradıcılıq yolu, əsərlərin yaranma tarixi haqqında məlumat və icmal xarakterli təhlili verilmişdir. Mirzə Hüseynovun "Hacı Xanməmmədov" kitabı[3] da bəstəkarın həyatı, ailəsi, yaradıcılıq yolu haqqında geniş oxucu kütləsi üçün maraqlı məlumatlarla doluğundur. Səadət Təhmirazqızının "Üzeyir məktəbinin yetirməsi: Hacı Xanməmmədov" məqaləsində[4] bəstəkarın yaradıcılıq yolunun inkişaf mərhələləri işıqlandırılmışdır.

---

[1]Zöhrabov R.F. Hacı Xanməmmədov. B.: 1992.; Zöhrabov R.F. Konsertlər müəllifi // Bəstəkarlarımız haqqında söz. I kitab. Bakı, Şur, 1995. s.38-44.
[2]Кафарова З.Г. Гаджи Ханмамедов. Б.: 1988.
[3]Hüseynov M.M. Hacı Xanməmmədov. B.: 2009.
[4]Təhmirazqızı S. Üzeyir məktəbinin yetirməsi: Hacı Xanməmmədov. "Mədəniyyət" qəzeti, 15.06.2011.

İmruz Əfəndiyevanın "Азербайджанская советская песня" ("Azərbaycan sovet mahnısı") adlı tədqiqatında[5] XX əsrin II yarısında Azərbaycanda mahnı janrının inkişafında digər bəstəkarlarla yanaşı, Hacı Xanməmmədovun xidmətlərini qeyd etmişdir.Ceyran Mahmudova "Mahnının qoşa qanadı – poeziya və musiqi" monoqrafiyasında[6] Hacı Xanməmmədovun mahnı yaradıcılığına xüsusi məqalə həsr edərək, bir sıra mahnıların timsalında şeirlə musiqinin vəhdətini qabarıq göstərmişdir.

Leyla Həsənovanın "XX əsr Azərbaycan musiqisində tar ilə simfonik orkestr üçün konsert: janr və üslub cizgiləri" mövzusunda namizədlik dissertasiyasında[7] Hacı Xanməmmədovun Tar Konsertlərinə həsr olunmuş bölmədə irəli sürülən problem çərçivəsində bu əsərlərin kompozisiya xüsusiyyətləri tədqiq edilmişdir. Yaqut Seyidovanın "Hacı Xanməmmədovun kamança konsertinin ifa üslub xüsusiyyətləri" məqaləsi[8] əsərin musiqi dilinin araşdırılması baxımından diqqəti cəlb edir.

Bu elmi materiallardan əlavə, mətbuat səhifələrində H.Xanməmmədovun həyat və yaradıcılığı ilə bağlı bir sıra jurnalist məqalələrini göstərə bilərik ki, bütün bunlar dissertasiya işinin yazılması prosesində bizim istifadə etdiyimiz mənbələr olmuşdur.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki,Azərbaycan musiqişünaslığında dissertasiya səviyyəsində ilk dəfə olaraq, Hacı Xanməmmədovun yaradıcılığı hərtərəfli tədqiq edilmiş, əsərlərinin musiqi dili və bəstəkarın üslub xüsusiyyətləri açıqlanmışdır.

Dissertasiyada bəstəkarın instrumental və vokal əsərləri təhlil edilmiş, onun yaradıcılığının mövzu dairəsi, janr xüsusiyyətləri, musiqi dili, onun xalq musiqisinə və muğama yaradıcı münasibəti, bunun nəticəsində meydana gələn yeni cəhətlər üzə çıxarılmışdır.

H.Xanməmmədovun musiqişünaslıqda öyrənilməmiş bir sıra əsərləri ilk dəfə olaraq tədqiqata cəlb olunmuşdur:

– bunlardan xalq çalğı alətləri orkestri üçün Simfoniyetta, süitalar, arfa ilə simfonik orkestr üçün Konserti;

---

[5]Эфендиева И.М. Азербайджанская советская песня. Б.: 1983.
[6]Mahmudova C.E. Mahnının qoşa qanadı – poeziya və musiqi. Bakı, 2013.
[7]Həsənova L.M. XX əsr Azərbaycan musiqisində tar ilə simfonik orkestr üçün konsert: janr və üslub cizgiləri. Sənətşünaslıq nam...diss... avtoreferatı. Bakı, 2008.
[8]Seyidova Y.Ş. Kamança və simfonik orkestr üçün ilk konsertlər silsiləsindən. // "Musiqi dünyası" jurnalı, № 3-4 (25), 2005. s. 198-199.

– mahnı və romansları ilk dəfə bizim tərəfimizdən bu dissertasiyada təhlil olunmuşdur;

– klassik və müasir musiqinin bəstəkarlıq üsullarının, Azərbaycan xalq musiqisindən istifadə prinsiplərinin bəstəkarın musiqi dilinə təsiri nəticəsində musiqi üslubunun yeniləşməsi;

– melodiya, intonasiya və ritmikanın rolu araşdırılaraq üzə çıxarılmışdır.

Hacı Xanməmmədovun əsərlərinin bədii keyfiyyətləri, onun yenilik axtarışları, xalq musiqisi və muğam ənənələrindən bəhrələnməsi sayəsində yaranan musiqi dilinin xüsusiyyətlərinin araşdırılması ilk dəfə olaraq, dissertasiya işi səviyyəsində həyata keçirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada qarşıya qoyulan əsas məqsəd Hacı Xanməmmədovun yaradıcılığının tədqiqata cəlb olunaraq, üslub xüsusiyyətləri baxımından öyrənilməsindən ibarətdir.

Bu məqsəddən irəli gələrək, dissertasiya işində aşağıdakı **vəzifələr** irəli sürülür və onların həlli qarşıya qoyulur:

– H.Xanməmmədovun formalaşdığı mədəni mühitin səciyyəvi cəhətlərinin araşdırılması və onun yaradıcılığında rolunun göstərilməsi;

– H.Xanməmmədovun yaradıcılığının inkişaf mərhələlərinin tədqiqi; H.Xanməmmədovun əsərlərinin mövzu dairəsi və janr rəngarəngliyi baxımından təhlili;

– bəstəkarın yaradıcılığının bütün sahələrini araşdırılması, bu prosesdə onun əsərlərinin milli musiqi kontekstində tədqiqi;

– bəstəkarın özünəməxsus yaradıcılıq xüsusiyyətlərinin və dəst-xəttinin aşkarlanması və elmi-nəzəri səviyyədə ümumiləşdirilməsindən ibarətdir.

**Tədqiqatın metod və metodoloji əsasları.** Tədqiqat prosesində nəzəri musiqişünaslıqda qəbul olunmuş təhlil metodlarından, o cümlədən, tarixi-nəzəri və müqayisəli təhlil metodundan istifadə edilmişdir. Bu məqsədlə Azərbaycan musiqişünaslarının elmi yaradıcılığına müraciət edilir, musiqi mədəniyyətinin, bəstəkarlıq sənətinin inkişaf yolları nəzərdən keçirilir.

Azərbaycan musiqişünaslarının – Üzeyir Hacıbəylinin, Məmmədsaleh İsmayılovun, Ramiz Zöhrabovun, İmruz Əfəndiyevanın, Gülnaz Abdullazadənin, Solmaz Qasımovanın, Zemfira Qafarovanın, Akif Quliyevin, Şəhla Həsənovanın, Cəmilə Həsənovanın, Ceyran Mahmudovanın, Gülzar Mahmudovanın, Zəminə Nəcəfovanın və başqalarının Azərbaycan musiqisinə, bilavasitə xalq musiqisi və bəstəkar yaradıcılığına həsr olunmuş tədqiqatları dissertasiyanın metodoloji bazasına çevrilmiş, işdə bütün bu musiqişünasların elmi müddəalarından bir mənbə kimi istifadə olunmuşdur.

**Tədqiqatın obyektini** Hacı Xanməmmədovun yaradıcılıq sahələrinin araşdırılması, özünəməxsus cəhətlərinin öyrənilməsi, bəstəkarın xalq musiqisi mənbələrinə münasibətinin üzə çıxarılması təşkil edir.

**Tədqiqatın predmetini** Azərbaycan musiqi tarixində Hacı Xanməmmədovun yaradıcılığının müxtəlif janr və formalı əsərlərinin öyrənilməsi, musiqi dilinin xüsusiyyətlərinin aşkarlanması baxımından təhlili, bəstəkarlıq üslubunun formalaşması prosesində milli musiqinin qanunauyğun cəhətlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın materialı** H.Xanməmmədovun müxtəlif illərdə yazılmış və çap olunmuş vokal və instrumental əsərlərindən ibarətdir. H.Xanməmmədovun - Tar və simfonik orkestr üçün Konsertləri; Kamança və simfonik orkestr üçün Konserti; Arfa və simfonik orkestr üçün Konserti; Xalq çalğı alətləri orkestri üçün Simfoniyetta və süitaları; mahnı və romansları tədqiqatın faktiki materialını təşkil edir.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti.** Tədqiqatın materiallarından, əldə edilmiş elmi müddəalardan gələcək elmi işlərdə, tədqiqat və mühazirələrdə, seminarlarda istifadə edilə bilər. Xüsusilə ali və orta ixtisas məktəblərinin nəzəri və praktiki kurslarında – "Azərbaycan musiqi tarixi" və s. fənlərin tədrisində faydalı ola bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları müəllifin yerli və xarici elmi məcmuələrdə çap olunmuş bir sıra məqalələrində, həmçinin, elmi konfranslarındakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, onların daxilində dörd yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat və notoqrafiya siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Hacı Xanməmmədovun yaradıcılıq yolunun mərhələləri" adlanır.**H.Xanməmmədovun həyat və yaradıcılıq yolunun mərhələləri ardıcıllıqla gənc yaşlarından təhsil illərindən başlayaraq, janrların mənimsənilməsi, musiqi irsinin zənginləşməsi, yaradıcılıq dəst-xəttinin təkmilləşməsi ilə bağlı olmuşdur. Hacı Xanməmmədovun özünəməxsus

musiqi üslubunun inkişafı vahid bir proses kimi gedərək kamilləşmişdir. Ona görə də H.Xanməmmədovun yaradıcılığının mərhələlərindən danışarkən, ardıcıllıqla ildən-ilə inkişaf və əldə olunan nailiyyətlər göstərilir.

Hər bir sənətkarın həyat və yaradıcılığının başlanğıc mərhələsi – uşaqlıq, gənclik illərində təhsil və sənətdə ilk addımları dövrüdür. Bu dövrdə təbii ki, ailənin, müəllimlərin, yaşadığı mühitin təsirinin böyük rolu vardır. Sonrakı mərhələlər - tədriclə musiqi janrlarının mənimsənilməsi ilə əlamətdar olmuşdur - Tar konsertinin yaranması H.Xanməmmədovun yaradıcılığının yeni mərhələsi olmaqla, onun sonrakı uğurlarına da təkan vermişdir. Konsert janrında əsərlərlə yanaşı, o, musiqili komediyalar, xalq çalğı alətləri üçün əsərlər, mahnılar, vokal-instrumental əsərlər yaratmışdır. Bəstəkarlıqla paralel olaraq, onun tarzən, dirijor, pedaqoq, ictimai xadim kimi fəaliyyəti genişlənmiş, o, Azərbaycan musiqi həyatında fəal rol oynayan sənətkar kimi tanınmışdır.

Hacı Xanməmmədov 1918-ci il iyunun 15-də Dərbənd şəhərində anadan olmuşdur. Bəstəkarın babası Xanməhəmməd İraqın şimalındakı Kərkük şəhərindən, türk ailəsindən idi. Kərkükün ingilislər tərəfindən işğalından sonra türklər şəhəri tərk etmək məcburiyyətində qalmışdılar, bunun nəticəsində Xanməhəmməd bəy Dağıstanda Dərbənd ətrafında Tinit kəndində məskunlaşmışdı.Onun böyük oğlu gələcək bəstəkar Hacı (Hacıhüseyn) Xanməmmədovun atası Dadaş bəy Dərbənd şəhərində tacirlik edərək, böyük nüfuz və hörmət sahibi olub, xalq arasında xeyriyyəçi kimi tanınırdı (1935-ci ildə Dadaş bəy repressiyaya məruz qalmış, həbs olunuraraq 1948-ci ildə vəfat etmişdir). Dadaş bəy böyük musiqi həvəskarı idi, o, sazda çalır, Azərbaycan xalq mahnılarını və aşıq havalarını özünəməxsus tərzdə ifa edirdi. Onun həyat yoldaşı Abuhəyat xanım da qarmon alətində çalır və xalq mahnılarını gözəl səslə oxuyurdu. Onların evində tez-tez musiqi axşamları, aşıqların yarışması keçirilirdi.

Bu mühit artıq kiçik yaşlarından Hacının musiqiyə olan həvəsini müəyyənləşdirmiş, musiqiçi olmaq qərarı tədricən möhkəmlənmişdir. Hacı sazda, kamançada, tarda çalmağı öyrənir. Xüsusilə tar alətinə o, böyük maraq göstərirdi. H.Xanməmmədov ilk musiqi təhsilini Dərbənddə musiqi klubunun nəzdindəki dərnəkdə alır. Onun ilk müəllimi tanınmış tarzən, bəstəkar və pedaqoq, Dağıstanın əməkdar incəsənət xadimi Cümşüd Aşurov idi. O, Hacının musiqi qabiliyyətini layiqincə qiymətləndirərək, ona Bakıya getməyi məsləhət bildi.

1933-cü ildə 15 yaşında ikən Hacı Xanməmmədov Dərbənd orta məktəbini bitirib Bakıya gəlir. Bakıda Hacı Xanməmmədovun dahi bəstəkar

Üzeyir Hacıbəyli ilə tanışlığı onun gələcəyini, bütövlükdə taleyini müəyyənləşdirib, bəstəkar və musiqiçi kimi püxtələşməsində həlledici rol oynamışdır. H.Xanməmmədov dahi Üzeyir bəyi bütün ömrü boyu dərin minnətdarlıq hissi ilə xatırlayırdı.

Azərbaycan musiqi mədəniyyətində özünəməxsus ab-havaya, inkişaf xüsusiyyətlərinə malik bir dövr olan 1930-cu illərdə milli və klassik musiqi ifaçılığı genişlənmiş, professional musiqi kollektivləri – simfonik orkestr, xalq çalğı alətləri orkestri və s. yaranmış, bəstəkar yaradıcılığında klassik opera, vokal və instrumental musiqi janrları mənimsənilmişdir. Bu illərdə çox parlaq bəstəkarlar və ifaçılar nəslinin sənətə gəlməsi – Niyazi, Səid Rüstəmov, Qara Qarayev, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Fikrət Əmirov, Cahangir Cahangirov və digər görkəmli bəstəkarların yaradıcılığının çiçəklənməsi qeyd olunmalıdır. H.Xanməmmədovun bir bəstəkar kimi bədii zövqünün formalaşmasında o dövrün musiqi həyatı, professional bəstəkarların yaradıcılığında müxtəlif musiqi janrlarının inkişaf etdirilməsi böyük rol oynamışdır.

H.Xanməmmədov Ü.Hacıbəylinin məsləhəti ilə Türk Musiqi Texnikumuna daxil olur. Burada görkəmli bəstəkar, dirijor və pedaqoq Səid Rüstəmovun tar sinfində təhsil alır. H.Xanməmmədov muğamın əsaslarını isə görkəmli tarzən və muğamın böyük bilicisi Mirzə Mansur Mansurovdan öyrənir. 1938-ci ildə texnikumu bitirdikdən sonra Azərbaycan Dövlət Konservatoriyasında təhsilini davam etdirmək üçün fəhlə fakultəsinə daxil olur. 1943-cü ildə Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir bəyin təşəbbüsü ilə "Xalq musiqisinin əsasları" şöbəsi açıldıqda H.Xanməmmədov bu şöbəyə qəbul olunur.

Həmin illər H.Xanməmmədov təhsil almaqla yanaşı, ifaçılıqla da məşğul olurdu. 1934-cü ildə Ü.Hacıbəyli H.Xanməmmədovu özünün rəhbərlik etdiyi Azərbaycan Dövlət Radiosu nəzdindəki Xalq Çalğı Alətləri Orkestrinə solist kimi qəbul etmişdi. 1937-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında "Koroğlu" operası tamaşaya qoyulanda Ü.Hacıbəylinin Simfonik Orkestrə dəvət etdiyi 7 tarzəndən biri H.Xanməmmədov idi. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyündə H.Xanməmmədov "Koroğlu" operasının tamaşasında orkestrin tərkibində iştirak etmiş, 1941-ci ildə həmin teatrla İranda qastrol səfərində olmuşdur.

Bu illərdə o, müəllimliklə də məşğul olmağa başlayır. Eyni zamanda, xor musiqisi ilə maraqlanırş Xor kollektivilə çalışması onun dirijorluq sahəsində vərdişlər qazanmasına və təcrübə əldə etməsinə yol açır. İkinci

Dünya Müharibəsi illərində H.Xanməmmədov Azərbaycan Dövlət Musiqili Komediya Teatrında dirijor kimi fəaliyyət göstərməklə yanaşı, bir sıra mahnı və marşlar, habelə o zaman məşhurlaşmış "Gözəl Pəri" mahnısını, Xalq Çalğı Alətləri Orkestri üçün "Qəhrəmani" əsərini bəstələyir.

1947-ci ildə H.Xanməmmədov öz təhsilini Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakultəsində davam etdirir. Əvvəl professor Boris Zeydmanın sinfinə daxil olan H.Xanməmmədov sonralar öz yaşıdı, böyük bəstəkarımız Qara Qarayevin sinfinə keçir. Uzun illər boyu Azərbaycan bəstəkarlıq məktəbinin bir çox görkəmli nümayəndələrinin yetişməsində Qara Qarayevin böyük rolu olmuşdur.

Q.Qarayevin sinfində təhsil aldığı müddətdə o, müəlliminin bütün tövsiyələrini, bəstəkarlıq sahəsində yazı prinsiplərini dərindən mənimsəyir. Q.Qarayevin sinfində o, simli kvartet, simfonik orkestr üçün "Uvertüra", "Neftçilər haqqında süita", "Sülh uğrunda" (sözləri S.Rustəmindir) kantatasını yazır. "Sülh uğrunda" kantatası hətta Azərbaycan radiosunun orkestri və xorunun ifasında səsləndirilir və lentə yazılıb fonda daxil edilir.

Q.Qarayevin təklifi ilə o, diplom işi kimi tar ilə simfonik orkestr üçün 1 saylı Konsertini bəstələyir və Dövlət İmtahan Komissiyası tərəfindən əla qiymətləndirilir. Tar Konserti ilk dəfə tarzən Əhsən Dadaşovun və Azərbaycan Dövlət simfonik orkestrinin (dirijor Ç.Hacıbəyov) ifasında səsləndirilmişdi.

H.Xanməmmədovun I Tar Konserti Azərbaycan musiqi mədəniyyətində bu janrda yazılmış ilk əsər olaraq, görkəmli yer tutmaqla, bəstəkarın yerini, tarixi əhəmiyyətini də müəyyənləşdirdi. Məhz instrumental Konsertlər bəstəkarı ölkəmizin hüdudlarından kənarda məşhurlaşdırmışdır.

Qeyd etmək lazımdır ki, konsert janrı, demək olar ki, klassik, romantik və müasir dövrün böyük bəstəkarlarının yaradıcılığında mühüm yer tutan janrlardan biridir. O cümlədən, Azərbaycan musiqi mədəniyyətində bu janr bəstəkarlar tərəfindən mənimsənilərək, müxtəlif alətlər üçün konsertlər meydana gəlmişdir.

H.Xanməmmədovun tarixi əhəmiyyəti ondan ibarətdir ki, o, ilk dəfə olaraq, Azərbaycan milli musiqi aləti olan tar ilə simfonik orkestr üçün konsert yaratmışdır. Bununla da klassik janra yeni mövqedən yanaşmış, milli və simfonik musiqi alətlərinin ifaçılıq imkanlarını bu janr daxilində uzlaşdırmış və Azərbaycan musiqisində konsert janrının inkişafında yeni bir səhifə açmışdır. O, Avropa musiqi ənənələrinə əsaslanaraq, Azərbaycan musiqi mədəniyyətinə xalq çalğı aləti və simfonik orkestr üçün konsert janrını daxil etmişdir.

Onun ardınca bir çox tanınmış bəstəkarlarımız – Səid Rüstəmov, Süleyman Ələsgərov, Cahangir Cahangirov, Zakir Bağırov, Tofiq Bakıxanov,

Ramiz Mirişli, Nəriman Məmmədov və başqa bəstəkarlar xalq çalğı aləti (tar, kamança, qanun və s.) ilə simfonik orkestr üçün (həmçinin, tar və xalq çalğı alətləri orkestri üçün) konsertlər yaratmışlar. H.Xanməmmədovun tar konsertləri nəinki Respublikamızda, habelə Özbəkistan, Qazaxıstan, Tacikistan və Qırğızıstan respublikalarında müvəffəqiyyətlə səslənmiş, tədris repertuarına daxil edilmişdir.

1 saylı Tar Konsertinin müvəffəqiyyətindən ruhlanan bəstəkar daha 4 tar konserti bəstələmişdir. 2 saylı Konsert onun ilk ifaçısı görkəmli tarzən, respublikanın xalq artisti Hacı Məmmədova ithaf olunmuşdur. Bu Konsert Moskvanın Sütunlu zalında tanınmış tarzən Əhsən Dadaşovun ifasında dinləyicilər tərəfindən rəğbətlə qarşılanmışdır. Onu da xatırladaq ki, 2 saylı Konsert görkəmli rus dirijoru V.Fedoseyevin idarəsilə Ümumittifaq radiosunda lentə yazılmış, Mərkəzi televiziyada onun videoyazısı saxlanılır. H.Xanməmmədovun 3 saylı Konserti də Əhsən Dadaşovun ifasında ilk dəfə səslənmişdir. H.Xanməmmədov zəmanəmizin böyük bəstəkarı, əziz müəlimi Qara Qarayevi itirdikdən sonra ona 4 saylı Konsertini həsr etdi. Bu Konsertin ilk ifaçısı və tar partiyasının redaktoru respublikanın xalq artisti Ramiz Quliyev idi.5 saylı tar ilə orkestr üçün Konsertin ilk ifaçısı isə istedadlı tarzən Ağasəlim Abdullayev olmuşdur. 5 saylı konsert son əsər kimi özündən əvvəlkilərin bütün yazı üslubuna dair xüsusiyyətləri cəmləşdirir. Bəstəkarın yaradıcılığının son dövrünə aid olan bu əsər bəstəkarın bütün yaradıcılıq təkamülünü özündə əks etdirir.

1987-ci ildə H.Xanməmmədov yenə də musiqimizdə ilk dəfə olaraq kamança və orkesrt üçün Konsert bəstələyir. Azərbaycan tarixinin çətin bir dövründə yazılmış bu əsərdə bəstəkar tarixi hadisələrə lirik kontekstdən yanaşmış, bu da onun nikbin ruhunu və inamını əks etdirir.

Kamança Konsertində alətin tembr xüsusiyyətlərini, ifadə vasitələrini, ahəng uyğunluqlarını, simfonik alətlər qrupları ilə yarışını əldə etmişdir. Bu Konsertin musiqisi emosional məzmunu, ürəyi riqqətə gətirən melodiyaları, maraqlı musiqi forması ilə seçilir. Bu mənada, müəllif klassik musiqimiz olan muğamlarımızdan, təsnif və xalq mahnılarının intonasiyalarından faydalanmışdır.

Onu da deyək ki, H.Xanməmmədov Kamança ilə simfonik orkestr üçün Konsertini görkəmli kamança ifaçısı, Xalq artisti, professor Şəfiqə Eyvazovanın ifasını nəzərdə tutaraq bəstələmişdi. Konsertin ilk ifaçısı da Ş.Eyvazova olmuşdur. Bu əsər Azərbaycan Bəstəkarlar İttifaqında musiqi ictimaiyyətinə təqdim olunmuşdur. Bu Konsert Ş.Eyvazovanın repertuarına daxil olaraq, sonrakı illərdə də dəfələrlə böyük müvəffəqiyyətlə səsləndirilmişdir.

1990-cı ildə isə Kamança ilə simfonik orkestr üçün Konsert mərhum sənətkar, respublikanın əməkdar artisti Ədalət Vəzirov tərəfindən ifa olunmuşdur. O, bu əsəri xarici ölkələrdə də ifa etməklə bərabər, onu videoya yazdırmış, radionun qızıl fonduna daxil etmişdir.

Hal-hazırda bu Konserti artıq bir neçə dəfə tanınmış istedadlı kamança ifaçısı Mehri Əsədullayevaməharətlə, yüksək səviyyədə ifa edir və əsər hər dəfə səmimi alqışlarla qarşılanmışdır. O, bu Konsertlə bir neçə xarici ölkələrdə də çıxış etmişdir. Əsər istər Ali, istərsə orta ixtisas musiqi məktəblərinin proqramına daxil edilmişdir.

H.Xanməmmədovun istedadı digər janrlarda da özünü bariz şəkildə nümayiş etdirmişdir. 1960-cı illərdə bəstəkar Azərbaycan Dövlət Musiqili Komediya Teatrında səhnələşdirilmiş "Bir dəqiqə" (librettosu Məhərrəm Əlizadənin), "Bütün ərlər yaxşıdır" (librettosu Aleksandr Xaldeyevin) musiqili komediyalarını yaradır. Diqqətəlayiqdir ki, "Bir dəqiqə" musiqili komediyası 1965-ci ildə teatrın Moskvada qastrol səfəri zamanı Kremlin Qurultaylar Sarayında uğurla göstərilmişdir.

Hacı Xanməmmədovun yaradıcılıq tərcümeyi-halında Azərbaycan televiziyası və radiosunun xalq çalğı alətləri orkestrindəki fəaliyyəti, bu kollektivlə möhkəm təmasda olması da diqqətəlayiqdir. O, ilk yaradıcılıq təcrübələrindən bu orkestrlə bağlı olmuş, uzun müddət orkestrdə çalışmış, xalq çalğı alətləri orkestrinin dirijoru olmuş, eyni zamanda, Azərbaycan Dövlət Konservatoriyasında xalq çalğı alətləri orkestri üzrə alətləşdirmə və dirijorluq üzrə dərs demiş, mütəxəssislər yetişdirmişdir. Hacı Xanməmmədov bir dirijor kimi xalq çalğı alətləri orkestrinin repertuarında olan Qərbi Avropa və rus klassiklərinin, eləcə də Azərbaycan bəstəkarlarının əsərlərini eyni ilhamla, sənətkarlıqla təfsir etməyə müvəffəq olurdu. Bəstəkar eyni zamanda, öz əsərlərinin də ən gözəl interpretatoru olmuşdur.

Xalq çalğı alətləri orkestri üçün yazılmış əsərləri onun yaradıcılığının mühüm hissəsini təşkil edir. O, xalq çalğı alətləri orkestri üçün ənənəvi olan "Azərbaycan eskizləri", "Bayram", "Azərbaycan" süitaları ilə yanaşı, "Simfoniyetta" əsəri ilə yeni janr xüsusiyyətləri ilə fərqlənən bir nümunə yaratmışdır ki, bu da Azərbaycan bəstəkarlarının yaradıcılığında öz davamını tapmışdır (Nəriman Məmmədovun, Ramiz Mirişlinin və b. yaradıcılığında). H.Xanməmmədov öz əsərləri vasitəsilə orkestrdə bas balabanı, pikkolo balabanı, müxtəlif növ tütək və digər nəfəsli alətləri də partituraya salmışdı.

1990-cı illərdə H.XanməmmədovunƏ.Cəfərzadənin sözlərinəyazdığı "Əlimdə sazım ağlar" solist və xalq çalğı alətləri orkestri üçün Poema (Qarabağ şəhidlərinə həsr olunub, 1991) bəstəkarın müstəqil Azərbaycan

tarixinin faciəli hadisələrinə, Şəhidlik mövzusuna münasibətini, onun vətəndaşlıq mövqeyini nümayiş etdirən bir əsər kimi dəyərlidir.

H.Xanməmmədov həm də gözəl mahnılar müəllifidir. Onun ilk əsəri mahnı olub, şair Zeynal Cabbarzadənin sözlərinə bəstələdiyi "Gözəl Pəri" mahnısı 1944-cü ildə Qafqaz respublikalarının mədəniyyət ongünlüyündə səslənib.

H.Xanməmmədovun mahnılarının mətnini Aşıq Ələsgər, Mikayıl Müşfiq kimi görkəmli şairlərin şeirləri təşkil edir. Aşıq Ələsgərin sözlərinə yazılan "Telli", "Güllü", "Qadan alım", "Ceyran", "Getmə, amandı", "Niyə döndü" mahnıları, M.Müşfiqin şeirlərinə bəstələdiyi "Yaşa, könül", "Yadıma düşdü", "Oxu, sevgilim", "Sənin gözlərin", "Qurban olduğum", "Neyçün gəlmədin", "Arzuya bax, sevgilim" və başqa bəstələri bu gün də eyni şövqlə sevilir. H.Xanməmmədov həmçinin, Səməd Vurğun, Şıxəli Qurbanov, Rəsul Rza, Məmməd İsmayıl, Həmid Abbas, Balaş Azəroğlu, Aşıq Alı, Qəşəm İsabəyli və b. şairlərin sözlərinə mahnılar bəstələmişdir.

Bəstəkarınlirik mahnıları ilə yanaşı, vətənpərvərlik və şəhidlər mövzusunda yazdığı mahnıları - "Yad əllərdə qalan Şuşam", "Qələmim süngüyə dönsün", "Ey türkün övladları" və başqalarını qeyd edə bilərik.

H.Xanməmmədovun mahnıları görkəmli müğənnilərimizin repertuarında layiqli yer tutur. Onun könül oxşayan mahnılarını Rəşid Behbudov, Şövkət Ələkbərova, Gülağa Məmmədov, Rübabə Muradova, Nəzakət Məmmədova və başqaları böyük şövqlə ifa ediblər. H.Xanməmmədovun bir-birindən gözəl, təravətli mahnılar bu gün də konsert estradalarında, radio dalğalarında və mavi ekranda səslənir.

H.Xanməmmədov eyni zamanda, təcrübəli pedaqoq idi. Onun professional musiqi kadrlarının tərbiyəsində mühüm xidməti olmuşdur. 40 ildən artıq bir dövrdə H.Xanməmmədov Bakı Musiqi Texnikumunda dərs demiş, 1957-ci ildən ömrünün sonuna kimi Bakı Musiqi Akademiyasında çalışmışdır.

H.Xanməmmədovun ictimai fəaliyyəti də geniş idi. O, 1951-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, 1956-cı ildən, İdarə Heyətinin üzvü olmuşdur. O, müxtəlif illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri kimi məsul vəzifələrdə çalışmış, bir bəstəkar və ictimai xadim kimi çox faydalı işlər görmüşdür.

H.Xanməmmədovun Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətləti layiqincə qiymətləndirilmişdir. O, Azərbaycan SSR əməkdar incəsənət xadimi (1967), Azərbaycan SSR xalq artisti (1988) fəxri adlarına, "Rəşadətli əməyə görə" medalına (1985), "Şöhrət" ordeninə (2000) və

Prezident təqaüdünə (2001) layiq görülmüşdür. Görkəmli bəstəkar Hacı Dadaş oğlu Xanməmmədov 2005-ci il aprelin 7-də ömrünün 87-ci ilində vəfat etmişdir.

Dissertasiyanın **II fəsli "Hacı Xanməmmədovun yaradıcılığında instrumental konsert janrı"** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir: **2.1. "H.Xanməmmədovun instrumental konsertlərinin musiqi dilinin xüsusiyyətləri"** adlanır. H.Xanməmmədovun yaradıcılığında instrumental konsert janrı xüsusi yer tutur və onun üslub xüsusiyyətlərinin təkamülünün öyrənilməsində bu əsərlər mühüm əhəmiyyətə malikdir. H.Xanməmmədov yeddi konsert bəstələmişdir, bunlardan beşi tar aləti üçün, biri kamança, biri isə arfa aləti üçün nəzərdə tutulmuşdur.

H.Xanməmmədovun instrumental konsertləri fərdi yaradıcılıq dəstxətti ilə tanınmış və bir sıra yeniliklərlə bağlı olmuşdur. Bəstəkarın konsertləri musiqi dili, bəstəkarlıq texnikası, eləcə də solist alətin virtuoz əhəmiyyətli ifadəsi xüsusiyyətində mərhələli xarakterə malik olub, müəllifin yaradıcı qabiliyyətini büruzə vermişdir. Musiqi təfəkkürünün simfonikliyi, orkestr partiyasının aydınlığı, mövzuların inkişaflılığı xalq musiqisinə və muğama xas inkişaf üsullarının tətbiqi bunu sübut edir. H.Xanməmmədovun instrumental konsertlərində xalq musiqisi qaynaqlarına istinad etmə, formayaradılışı xüsusiyyətləri və s. bilavasitə öz əksini tapır.

H.Xanməmmədovun instrumental konsertləri ənənəvi üç hissədən ibarət silsilədir: birinci hissə - sürətli tempdə, coşğun xarakterli, sonato allegrosu formasında; ikinci hissə - ağır tempdə, lirik xarakterli, üçhissəli formada; üçüncü hissə - final, tez tempdə, rondo formasında.

Tar Konsertlərində hissələrin tempində müəyyən dəyişikliklər nəzərə çarpsa da ənənəvi temp ardıcıllaşması saxlanılır. Eyni zamanda, konsertlərin ümumi quruluş-kompozisiyasında ənənəvi cəhətlər özünü göstərir. Konsertlərin hissələrində sonata alleqrosu, üçhissəli və rondo formalarından istifadə olunmuşdur. Əsərlərin temp göstəricisinə görə eyni olan kənar hissələri musiqinin fəal xarakteri, coşğun hərəkətliliyi, ritmik şəklin mütənasibliyi baxımından da yaxındır. İkinci hissələr isə lirik xarakterinə və musiqi quruluşuna görə kənar hissələrlə təzadlıq təşkil edir.

H.Xanməmmədovun konsertlərində ekspozisiyaların oxşar və fərqli cəhətlərini qeyd edək. Konsertlərdə ekspozisiyalar birbaşa solistin və orkestrin ifasında əsas mövzunun səsləndirilməsi ilə başlayır. Bir neçə xanəlik giriş müşayiət fonu kimi əsas mövzunun səslənməsinə hazırlıq əhəmiyyəti daşıyır. İnkişaf boyu əsas mövzunun həmin müşayiət elementləri ilə qarşılıqlı əlaqəsi özünü göstərir.

H.Xanməmmədovun Tar konsertlərinin I hissələrində əsas mövzular əsərin kompozisiya quruluşundakı yerinə görə mühüm əhəmiyyətlidir. Əsas mövzunun sonata alleqrosu formasındakı yeri və vəzifəsi müəyyən quruluş xüsusiyyətlərinə malikdir. Əsas mövzular üçhissəli quruluşa malik olub, kənar hissələr əsasən eyni musiqi materialına (çox hallarda variantlı, dinamik reprizalı), orta bölmə isə işləmə xarakterlidir.

Mövzular məqam əsasına görə yaxın olsa da (dörd mövzuda şur məqam əsası, bir mövzuda bayarı-şiraz), bəstəkarın yaradıcılıq təxəyyülünün genişliyi sayəsində rəngarəng musiqi məzmununa malik melodiyalar meydana gəlmişdir. Bunlar ümumi ruhuna, quruluş xüsusiyyətlərinə görə xalq musiqisinə, aşıq havalarına yaxındır. Silsilənin əvvəlində bu ruhda mövzuların verilməsi klassik konsert silsiləsinin ənənəvi cəhətləri ilə bağlıdır.

H.Xanməmmədovun Tar Konsertlərində I hissənin köməkçi mövzularında bəstəkarın lirikasına xas olan cəhətlər, aydın melodiya, axıcılıq, mahnıvarilik öz əksini tapır. Aydın, səlis melodiya bir nov, lirik qadın rəqslərini yada salır. Köməkçi mövzuların əsas mövzularla münasibəti müxtəlif şəkildə təzahür edir. Bir çox hallarda ekspozisiyada köməkçi mövzu - əsas mövzu ilə tembr, obraz, ritmik xüsusiyyətlərinə görə təzadlıq təşkil edir. Bəzi hallarda mövzular məqam-intonasiya xüsusiyyətləri baxımından bir-birini tamamlayır.

I Tar Konsertində diqqəti cəlb edən cəhətin - ekspozisiyada əsas və köməkçi mövzular arasındakı məqam-tonallıq münasibətlərinin digər konsertlərdə müxtəlif şəkildə təqdim olunduğunu qeyd edə bilərik. 2 saylı Tar Konsertinin ekspozisiyasında əsas mövzu şur (a moll), köməkçi mövzu bayatı-şiraz (f-moll) məqam əsasına malikdir. Melodik, ritmik xüsusiyyətlərinə görə lirik köməkçi mövzu dramatik əsas mövzu ilə təzadlı səslənmə əmələ gətirir. 3 saylı Tar Konsertində əsas mövzu ilə köməkçi mövzu arasında şur - segah məqam modulyasiyası özünü göstərir. 4 saylı Tar Konsertində əsas mövzu ilə köməkçi mövzu arasında məqam-tonallıq əlaqələri daha mürəkkəbdir. Burada əsas mövzu bayatı-şiraz məqamında, köməkçi mövzu isə şüştər məqamındadır. Mövzular bir-birilə xarakterinə görə təzadlıdır. Forma quruluşunda bir mövzudan digərinə keçid qəfil modulyasiya vasitəsilə həyata keçirilir. 5 saylı Tar Konsertində lirik xarakterli köməkçi mövzu şüştər məqamındadır (g-moll). Bu mövzu solistin partiyasında səslənir. Maraqlı cəhətlərdən biri də bundan ibarətdir ki, bu mövzuya kontrapunkt kimi orkestrdə şur məqamına əsaslanan əsas mövzunun melodiyası keçir. Bəstəkar məqamların istinad dayaq pillələrindən və melodik intonasiya xüsusiyyətlərindən istifadə etməklə ahəngdar surətdə şüştər və şur

məqamlarına əsaslanan mövzuların polifonik fakturada birləşdirilməsinə nail olmuşdur.

H.Xanməmmədov yaratdığı tar konsertlərində ekspozisiyanın klassik məqam-tonallıq planından kənara çıxaraq, əsas və köməkçi mövzular arasında milli məqamlara xas olan qanunauyğun keçid yollarından istifadə etmişdir.

Köməkçi mövzular adətən ikihissəli və ya üçhissəli olur. Formanın hissələri periodlardan ibarət olur, adətən, ikinci period birincinin variantlı təkrarına əsaslanır. Mövzuların quruluşunda xüsusilə sekvensiyalılıq özünü qabarıq göstərir və bu üsul mövzunun müxtəlif tonallıqlarda səsləndirilməsilə onun işlənməsinə yol açır. Konsertlərdə ekspozisiyanın sonunda tamamlayıcı bölmə verilmir, bunu köməkçi mövzunun sonuncu cümləsi əvəz edir və işlənmə bölməsinin hazırlanmasına xidmət edir.

İşlənmə bölməsində mövzuların inkişafı davam etdirilir, burada həm tonallıq qarşılaşdırılmaları, həm də melodik variasiya olunma diqqəti cəlb edir. İşlənmə bölməsində də musiqi materialının mərhələlərlə inkişafı qeyd olunmalıdır. Giriş və əsas mövzular bir-birinə qarşılıqlı təsirdə, yeni səslənmədə verilir, burada aşıq musiqisinin intonasiyaları önə çıxır.

Konsertlərin birinci hissəsində kadensiyalar xüsusi əhəmiyyət kəsb edir. Kadensiyalar "ad libitum" bölməsində verilir. Konsertlərdə kadensiya işlənmə bölməsindən sonra gəlir və bir növ, işlənmənin ikinci dalğasını əmələ gətirir: burada tarın virtuozluğu nümayiş etdirməklə yanaşı, işlənməyə xas olan inkişaf üsullarından da istifadə olunur.

H.Xanməmmədovun instrumental konsertlərinin timsalında belə bir cəhəti də qeyd etmək lazımdır ki, bəstəkar kadensiyaların musiqi mətnində muğamlardan və xalq musiqisindən geniş surətdə istifadə etsə də, onları dəqiq surətdə notlaşdırmışdır. Burada diqqəti çəkən əsas cəhət bəstəkarın tarın şifahi ənənəli ifa tərzinə xas olan muğamvari improvizasiyanı solistin öhdəsinə buraxmamış, əksinə, onun ciddi çərçivələrini müəyyən etmişdir. Kadensiya bölmələrində özünü göstərən bu cəhət ənənəvi olaraq, digər bəstəkarlar tərəfindən də saxlanılmışdır. H.Xanməmmədovun yaratdığı konsertlərin birinci hissələrində ənənəvi olaraq repriza bölmələri bir qədər yığcam verilir.

H.Xanməmmədovun instrumental konsertlərinin kompozisiya quruluşunda II hissələr əsərin lirik mərkəzi rolunu oynayır. Əsasən Andante tempində, üçhissəli formada olur. Konsertlərinin kompozisiya quruluşunda III hissələr özünəməxsus yekunlaşdırıcı əhəmiyyətə malikdir.

H.Xanməmmədovun instrumental konsertləri solo və simfonik musiqinin prinsiplərini özündə uzlaşdırır ki, bu da həmin janra xas olan cəhətdir. Solo alətin virtuoz və ifadəli imkanlarından maksimal dərəcədə istifadə olunmuşdur.

H.Xanməmmədov instrumental konsertlərinin intonasiya quruluşunda milli musiqinin elementlərindən geniş surətdə istifadə etmişdir. Bəstəkarın instrumental konsertlərində çox müraciət etdiyi cəhətlərdən biri - xalq rəqslərinin ritmləri ilə bağlıdır. H.Xanməmmədov xüsusilə "Qaytağı" - "Ləzginka" rəqsinin ritmlərindən öz əsərlərində geniş surətdə istifadə etmişdir. Nümunə olaraq, 2 saylı Tar Konsertinin I hissəsini və Finalını göstərə bilərik. Bu rəqsin ritmintonasiyalarına bəstəkarın digər konsertlərində də rast gəlilnir. Bəstəkar həmçinin "Cəngi" kimi qəhrəmani rəqslərə, eləcə də lirik xalq rəqslərinin melodik-ritmik xüsusiyyətlərinə müraciət etmişdir.

H.Xanməmmədov konsertlərdə xalq mahnı intonasiyalarına da müraciət etmişdir. Bu baxımdan "Kəklik", "Yar bizə qonaq gələcək", "Sona xanım" xalq mahnılarının intonasiyalarını konsertlərin musiqi məzmununa daxil etməsi maraqlıdır. Xalq mahnı və rəqsinin konsertin musiqi məzmununa daxil edilməsinin mühüm amillərindən biri onların musiqi üslubu ilə bağlıdır.

H.Xanməmmədovun instrumental konsertlərində aşıq musiqisinin xüsusiyyətləri də qabarıqdır. Saz alətinə xas olan ifa xüsusiyyətləri, ahənglər tar partiyasında tətbiq olunur, həmçinin, əsərlərin harmonik üslubunda da aşıq musiqisinə xas olan harmoniyalar özünü göstərir. Məsələn, bəstəkarın konsertlərinin harmonik dilində çox tez-tez "aşıq harmoniyası" özünü göstərir. Bunlar kvart-kvint və kvart-sekund birləşmələrindən əmələ gələn akkordlardır. Lakin aşıq musiqisinə müraciət yalnız akkordlardan istifadə ilə məhdudlaşmır. Burada həmçinin, saz alətinə xas olan ifa xüsusiyyətləri tar partiyasında tətbiq olunur.

Konsertlərdə mövzuların inkişaf etdirilməsində muğama xas olan cəhətlər də vardır ki, bunların sırasında mərhələlərlə, dalğavari inkişaf xəttini xüsusi qeyd etməliyik. Belə ki, hər inkişaf dalğası növbəti mərhələyə keçid üçün zəmin hazırlayır. Yeni mərhələdə mövzu daha yüksək səsdən keçir və nəhayət kulminasiyaya çatdırılır. Kulminasiya, muğamda olduğu kimi, mayədən bir oktava yuxarı registrdə səslənir.

Konsertlərin musiqi məzmununda zərbi-muğamın özünəməxsus melodik və metro-ritmik müşayiət keyfiyyətlərindən istifadə olunmasında müəyyən bir qanunauyğunluq özünü göstərir. Belə ki, zərbi-muğamlardan bəstəkar kompozisiyanın yekun mərhələsində - Final bölməsində istifadə edir. Bu da zərbi-muğamların yüksək registrdə oxunması, yığcam və səfərbəredici metro-ritmik və melodik xüsusiyyətlərə malik olmasından irəli gəlir. Bununla belə, bəzi hallarda konsertlərin I hissəsində, xüsusilə əsas mövzuların ifadə tərzi zərbi-muğam ifaçılığına yaxındır.

H.Xanməmmədovun instrumental konsertlərinin ən səciyyəvi xüsusiyyəti silsilədə xalq musiqisinin ən müxtəlif janrlarının – muğam, aşıq musiqisi, mahnı və rəqs xüsusiyyətlərinin uyğunlaşdırılmasıdır. Beləliklə, instrumental Konsertlər H.Xanməmmədovun yaradıcılığında mühüm yer tutur. Bu əsərlərin yetkinliyi və kamilliyi tematizmin xarakterində və onun inkişaf üsullarında özünü göstərir.

II fəslin ikinci yarımfəslində - **2.2. "H.Xanməmmədovun Arfa ilə simfonik orkestr üçün konserti"**nin təhlili verilmişdir. H.Xanməmmədovun Arfa ilə simfonik orkestr üçün Konserti bəstəkarın konsertləri arasında özünəməxsus yer tutur. Bu Konsertin maraqlı cəhətlərindən biri ondan ibarətdir ki, bu əsər Azərbaycanda arfa aləti üçün yazılmış ilk konsertdir. Bununla yanaşı, həmin konsertin Azərbaycan xalq musiqi aləti qanun və fortepiano üçün köçürməsi (işləyəni Təranə Əliyeva) qanun ifaçılığı üzrə tədris proqramlarına daxil olmuşdur. Biz bu köçürmə üzərində təhlillər aparmışıq.

Bu konsertdə bəstəkarın istedadının və yaradıcılıq dəst-xəttinin ən gözəl xüsusiyyətləri öz əksini tapmışdır. Lirik obrazların mahnıvari plastikliyi, qəmli mövzuların axıcılığı, skertsosayağı mövzuların oynaqlığı, musiqi dilinin zəngin melodikliyi bu əsərin diqqətəlayiq cəhətlərindəndir. Eyni zamanda, H.Xanməmmədovun yaradıcılığına xas olan romantik məhəbbət hisslərinin tərənnümü, bununla bağlı olaraq, musiqi dilinin sadəliyi və səmimiliyi bu əsərdə özünü qabarıq büruzə verir.

Arfa konserti üç hissədən ibarətdir. Arfa Konsertində hissələr tempinə görə aşağıdakı kimi ardıcıllaşır: I hissə - Moderato, II hissə - Andante, III hissə - Allegro moderato. Bu cür ardıcıllıqdan göründüyü kimi, bəstəkar konsert janrının ənənəvi cəhətlərindən biri olan temp kontrastlığı çərçivəsindən çıxaraq, musiqinin inkişafını asta tempdən cəld tempə doğru istiqamətləndirmişdir ki, bu da muğam ifaçılığından gələn tədrici inkişaf prinsipinə uyğundur. Bununla belə, Konsertin hissələrini birləşdirən ümumi əhval-ruhiyyə hökm sürür ki, bu da əsərin quruluşunda qabarıq surətdə özünü göstərir. Əsərin lirik, düşüncəli xarakteri bütün hissələrdə öz təcəssümünü tapır.

Musiqi obrazlarının koloritliyi sayəsində əsərin xarakteri daha rəngarəng çalarlar kəsb edir.Bununla belə konsertin bütün mövzuları ruhuna görə bir-birinə yaxındır və kəskin kontrastlıq təşkil etmir, sanki biri-digərini tamamlayaraq ümumi bir mənzərənin, əhval-ruhiyyənin yaradılmasına xidmət edir.

Konsertin hissələrinin forma quruluşunu da qeyd edək: I hissə sonata formasında bəstələnmişdir; II hissə mərhələli variasiyalı işlənməyə əsaslanır; III hissə üçhissəli formanın variasiyalı forma ilə qovuşdurulmasına əsaslanır. Eyni zamanda, hissələrin daxilindəki bölmələrin quruluşunda

üçhissəlilik özünü göstərir. Müxtəlif xarakterli epizodların növbələşməsi, mövzuların təkrarlanması və hər bölmədən sonra musiqi fikrinin yekunlaşdırılması bunu deməyə əsas verir. Burada həmçinin, formanın bölmələri daxilində mərhələli inkişaf prosesini də qeyd etməliyik. Mövzuların variantlarının yaradılması, hər dəfə yeni cəhətlərlə zənginləşməsi dinamik inkişafı təmin edir.

Konsertin kompozisiya quruluşunda mövzuların təkrarlanması ilə əsərin hissələri arasında tematik tağların yaradılmasını da qeyd etməliyik.Bu baxımdan I hissənin giriş mövzusunun III hissədə işlənilməsi hissələr arasında əlaqələndirmə əmələ gətirir.Bununla yanaşı, I hissənin köməkçi mövzusunun III hissədə yeni variantda işlənilməsi də əsərin bölmələrinin əlaqələndirilməsi baxımından diqqətəlayiqdir.Ümumiyyətlə, əsərin mövzuları arasındakı intonasiya əlaqələri əsərin musiqi məzmununun vəhdətinə xidmət edir.

Hacı Xanməmmədovun Arfa və simfonik orkestr üçün Konsertinin qanun aləti üçün işləməsi üslub xüsusiyyətlərinə görə maraqlı bir əsər olmaqla yanaşı, ifaçılıq baxımından da özünəməxsus cəhətlərə malikdir.Əsərin hissələri daxilində və hissələri arasında kəskin konfliktin olmayaraq, bütün mövzular vahid bir dinamik inkişafa tabe olunmuşdur. Dramaturgiya məqsədyönlü inkişafı ilə diqqəti cəlb edir. Bütün bu hərəkət prosesində rəngarəng koloritli, zərif, şəffaf boyalar təcəssüm olunur.Konsertin ümumi kompozisiya quruluşu, məqam əsası, melodik və harmonik xüsusiyyətləri əsərin musiqi məzmununun tamlığına şərait yaradır.

Beləliklə, əsərin dramaturgiyasının, obrazlarının hərtərəfli açılmasına yönəldilmiş inkişaf prosesində müxtəlif üsullardan istifadə olunmuşdur. Konsertin ümumi ruhunun şərhində lirikanın müxtəlif çalarları uzlaşdırılaraq, incə səslənmə yaradır.

Dissertasiyanın **III fəsli "H.Xanməmmədovun vokal və xalq çalğı alətləri orkestri üçün əsərlərinin üslub xüsusiyyətləri" adlanır.** Bu fəsil iki yarımfəsildən ibarətdir: **3.1. "H.Xanməmmədovun mahnıları"**nın təhlili verilir. H.Xanməmmədovun yaradıcılığında mahnı janrı xüsusi yer tutur və onun yaradıcılıq üslubunun formalaşmasında mühüm əhəmiyyətli bir sahədir. H.Xanməmmədovun mahnıları müxtəlif mövzuları əhatə edir: məhəbbət lirikasına toxunan və romans keyfiyyəti daşıyan mahnılar, doğma torpağa, yurda məhəbbəti tərənnüm edən vətənpərvərlik mövzusu ilə bağlı və s. mahnıları göstərmək olar.

H.Xanməmmədovun mahnı yaradıcılığının əsas və həlledici keyfiyyəti onun melodik üslubudur. Bəstəkarın mahnılarının dərin və mənalı fərdi xarakterini bəstəkarın xalq intonasiyalarına münasibəti təyin edir. Mahnıların

mənbəyini xalq mahnı yaradıcılığının əsaslandığı məqam-intonasiya, struktur və kompozisiya xüsusiyyətləri müəyyənləşdirir. Məhz xalq musiqisindən gələn mahnıvarilik kütləvi mahnı janrının xarakterik keyfiyyətləri ilə fərdi şəkildə işlənib H.Xanməmmədovun vokal musiqisinə parlaq özünəməxsusluq bəxş etmişdir.

Mahnıların melodikası zənginliyi və ifadəliliyi ilə seçilir. Milli mənbələrlə bağlılıq onların zəngin məqam əsasında parlaq ifadəsini tapmışdır. Bəstəkarın mahnılarında Azərbaycan məqamlarından geniş istifadə edilir. Bununla belə, H.Xanməmmədovun mahnılarında şur və bayatı-şiraz məqamlarına üstünlük verdiyini qeyd edə bilərik. Məsələn, şur məqamına əsaslanan mahnılardan “Gözünə qurban”, “Yaşa könül”, “Tarla qızı” və s. göstərə bilərik. Bayatı-şiraz məqamına əsaslanan mahnılardan “Arzuya bax sevgilim”, “Sənin gözlərin”, “Gözüm düşdü” və s. qeyd etmək olar. Bu mahnıların melodik quruluşunda məqamın əsas istinad pillələri, kadensiya xüsusiyyətləri olduqca qabarıqdır və mühüm əhəmiyyət kəsb edir.

Bir neçə mahnının iki məqama əsaslandığı özünü göstərir. Bunlardan “Neçin gəlmədi” mahnısı bayatı-şiraz və rast məqamları, “Qurban olduğum”mahnısı isə bayatı-şiraz və segah məqamları üzərində qurulub. Başlanğıcda eyni məqam əsasına malik olmasına baxmayaraq, məqamlar arasında keçidlər müxtəlif üsullarla özünü büruzə verir. Burada mahnıların musiqi məzmunundakı məqam dəyişkənliyini iki cəhətdən - harmonik və melodik baxımdan nəzərdən keçirmək olar. Melodikanın milli məqam əsası onun harmonik quruluşunu şərtləndirir. Buradan da məqam və harmoniyanın asılılığı, milli məqam və major-minor sisteminin funksional əlaqələri bir daha sübut olunur.

Struktur nöqteyi-nəzərindən isə Hacı Xanməmmədovun mahnılarının çoxu xalq musiqisində olduğu kimi, kuplet-nəqərat formasındadır. Bununla belə, nəqəratsız iki-üç kupletli mahnılara rast gəlirik. Mahnılarda özünü göstərən formalardan biri də reprizalı ikihissəli və ya period formasıdır. Bütün bu forma quruluşu mahnılarda instrumental girişlə və koda ilə çərçivələnir.

H.Xanməmmədovun mahnılarının məna və məzmununun açılışında fortepiano müşayiəti mühüm rol oynayır. Burada fortepiano partiyası ikili funksiya daşıyaraq həm vokal partiyaya daxil olur, həm də obrazlı məzmunun açılışına xidmət edir. Bəstəkar böyük ustalıqla fortepiano partiyasında xalq musiqisinə xas olan improvizəliyi, bəzəkləri istifadə edir. Tez-tez fortepianonun ifasında xalq musiqi janrlarına xas olan ornamentlər, ostinat baslar tətbiq olunur. Bəstəkar bu mənada alətin bütün zənginliyi ilə tembr və dinamik imkanlarından istifadə edir. Mahnılarda aparıcı rol vokal

partiyaya mənsub olsa da, fortepiano partiyası melodiyaya daha böyük kolorit, rəngarənglik və ifadəlilik verir. Məhz instrumental müşayiətdə mahnıların harmonik dilinin xüsusiyyətləri, vokal və müşayiət partiyalarının qarşılıqlı əlaqəsindən yaranan harmoniyaların zənginliyi üzə çıxır.

III fəslin ikinci yarımfəslində - **3.2. "H.Xanməmmədovun xalq çalğı alətləri orkestri üçün əsərləri"** təhlil olunur. Hacı Xanməmmədovun yaradıcılığında mühüm yeri xalq çalğı alətləri orkestri üçün yazılmış əsərlər - "Azərbaycan eskizləri", "Kolxoz", "Bayram" süitaları, "Simfoniyetta" təşkil edir. H.Xanməmmədovun yaradıcılıq tapıntıları "Simfoniyetta"da bariz nəticəsini vermişdir.

Məlum olduğu kimi, Simfoniyetta (kiçik simfoniya deməkdir) klassik simfoniya janrının bir növü olub, daha sadə musiqi məzmunu, simfonik dramaturgiyaya xas olan kəskin təzadlardan uzaqlaşması, ziddiyyətlərin daha yumşaq həllinin verilməsi, məişət janrlı hissələrin daxil olunması ilə xarakterizə olunur. Azərbaycan musiqisində 1950-ci illərdə ilk dəfə Əfrasiyab Bədəlbəyli xalq çalğı alətləri orkestri üçün "Simfoniyetta", Musa Mirzəyev simfonik orkestr üçün "Simfoniyetta" bəstələmişdir.

Hacı Xanməmmədovun xalq çalğı alətləri orkestri üçün yazdığı "Simfoniyetta" üç hissəli əsərdir. Hər hissə müəyyən forma quruluşuna malikdir və əsər bütövlükdə klassik simfoniya janrının kompozisiya quruluşunu yığcam şəkildə özündə cəmləşdirir. Əsərin hissələri: I hissə - *Moderato maestoso, Allegro*; II hissə - *Andante, Largo*; III hissə - *Rondo (final) - Allegro molto.*

Birinci hissə qəhrəmani xarakterli, məğrur tərzdə səslənir.Lirik səciyyəli ikinci hissədə mövzuların quruluşunda mahnı-kuplet forması özünü göstərir. "Simfoniyetta"nın finalı - *Allegro molto*, təntənəli, zəfər marşını xatırladır ki, bu da müəyyən mənada əsərin kənar hissələri arasında obraz əlaqələrinin yaranması üçün zəmin yaradır. Əsərin finalı rondo formasında yazılıb. Bir-birinə təzad təşkil etməyən epizodların səslənməsi müxtəlif tərzdə həll edilmişdir.

"Simfoniyetta"nın ideya-dramaturji məzmununun yeniliyi təsviri və psixoloji planlı obrazların mürəkkəb uzlaşmasından ibarətdir. Əsərin bütün musiqi quruluşunda yeni cəhətlər özünü göstərir, tematizmin lakonikliyi, tezisliyi, musiqi dilinin bütün komponentlərinin qırılmaz əlaqəsi, kompozisiyanın üslub bütovlüyünü şərtləndirir.

H.Xanməmmədovun süitaları proqramlı əsərlər olub, Vətən mövzusunu, Vətənin gözəlliklərinin, Vətənin səadəti uğrunda çalışan insanların məğrur xarakterlərinin tərənnümünü özündə əks etdirir.

H.Xanməmmədovun "Azərbaycan eskizləri" süitası doğma Vətənimizə həsr olunmuş ən gözəl orkestr əsərlərindən biridir. Bu əsərdə xalq çalğı alətləri orkestrinə daxil olan bütün qrupların bədii və texniki inkanları, tembr xüsusiyyətləri Hacı Xanməmmədov tərəfindən məharətlə istifadə olunmuşdur. Əsər milli məqam sisteminə dayaqlanaraq parlaq melodiyaların yaranması, zəngin tembr dramaturgiyası baxımından böyük maraq kəsb edir. Əsər həm də klassik süita formasının milli melosun qanunauyğunluqları ilə sintezi baxımından da diqqəti cəlb edir.

H.Xanməmmədovun "Kolxoz" süitası beş hissədən ibarət olub, klassik süita formasının milli musiqi xüsusiyyətləri ilə qovuşdurulması baxımından böyük maraq doğurur. Süitanın hissələrinin hər biri özünəməxsus quruluş xüsusiyyətlərinə malikdir, eyni zamanda, onlar əsərin kompozisiya quruluşunda müəyyən əhəmiyyət daşıyır. Süitanın hər hissəsinin özünün proqramlı adı var: I hissə - "Kənddə", Allegro moderato; II hissə - "Ağır rəqs", Andante; III hissə - "Xırmanda", Moderato; IV hissə - "Rəqs", Allegro; V hissə - "Kolxozda bayram", Presto. Süitanın quruluş-kompozisiya prinsiplərinə uyğun olaraq, bəstəkar əsərin hissələrini təzadlıq prinsipi üzərində qurmuşdur. Süitanın hissələri xarakterinə görə fərqlənir, eyni zamanda, biri-digərini əvəz edərək, əsərin ümumi kompozisiyasına bütövlük gətirir, əsərin rəngarəng obrazlarının açılmasına imkan yaradır.

Qeyd etmək lazımdır ki, "Kolxoz" süitasının üslubu bəstəkarın digər süitalarında da öz əksini tapmışdır. Ümumiyyətlə, H.Xanməmmədovun xalq çalğı alətləri orkestri üçün yazılmış əsərlərində milli musiqi ənənələri ilə bağlılıq çox parlaq şəkildə təzahür edir, bu cəhətlər həm əsərin kompozisiya quruluşunda, həm də məqam-intonasiya və melodik xüsusiyyətlərində özünü qabarıq büruzə verir.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur və əldə olunan nəticələr qeyd edilir.

H.Xanməmmədovun yaradıcılığında vokal və instrumental musiqi sahəsi aparıcı əhəmiyyət kəsb edir. Vokal musiqisində mahnı janrında yazdığı əsərlər musiqi irsində mühüm yer tutur. İnstrumental musiqi sahəsində konsertlər və xalq çalğı alətləri orkestri üçün əsərlər diqqətəlayiqdir. Bəstəkarın yaradıcılıq üslubunda Azərbaycan musiqi folkloru, aşıq və muğam yaradıcılığı üzvi surətdə təcəssümünü tapmışdır.

H.Xanməmmədovun yaradıcılığında xalq musiqisindən və muğamdan istifadədə ilkin mənbəyə yaradıcı münasibət özünü qabarıq şəkildə göstərir. Bəstəkar xalq mahnı və rəqs melodiyalarının, aşıq havalarının, muğamların melodik intonasiya quruluşuna əsaslanaraq, orijinal əsərlərini yaratmışdır.

Bu baxımdan xalq musiqi nümunələrinin ilkin mənbədə və bəstəkar təxəyyülündə əks olunması, bəstəkarın yazı üslubunda dəyişikliyə uğraması qeyd olunmalıdır. Bununla yanaşı, milli musiqi xarakteristikası musiqi dilinin və formanın detalları ilə yanaşı, həmçinin, musiqi vasitələrinin kompleksində çıxış edir. Ona görə də məqsədəuyğun olaraq, hərtərəfli melodik təhlil aparılmışdır. Bəstəkarın yaratdığı melodiyalar özlüyündə çox oxunaqlı olub, təsirli və yaddaqalandır. Bəstəkarın melodiyaları lirik ifadə vasitəsi kimi onun daxili hisslərini, ideya və fikirlərini təcəssüm etdirir.

H.Xanməmmədovun əsərlərində mövzunun dərindən açılması, bəstəkarın yaradıcılıq təfəkürü ilə bağlı özünəməxsus cizgilər, musiqi dilinin milli ənənələrlə bağlılığı özünü büruzə verir. H.Xanməmmədovun əsərlərinin üslub xüsusiyyətləri sırasında milli məqamlara istinad, melodiyanın məqam dayaqları, melodik inkişafda təkrarlıq, sekvensiyalılıq prinsiplərindən istifadə xüsusi qeyd olunmalıdır. Mövzudan irəli gələrək, onun xarakterik xüsusiyyətləri musiqi quruluşunda, melodik intonasiya səviyyəsində, metro-ritmik cəhətlərdə öz təzahürünü tapır. Bu sırada melodikanın quruluş xüsusiyyətləri, məqam-intonasiya əsası, sözlə musiqinin vəhdəti, vokalın və müşayiətin uyğunluğu, müşayiətin fakturası və s. xüsusi cəhətlər diqqətəlayiqdir.

Beləliklə, H.Xanməmmədovun təhlil olunan əsərlərində Azərbaycan xalq musiqisinin intonasiya xüsusiyyətlərindən istifadə özünü aydın göstərir ki, bu da ümumilikdə dəqiq milli musiqi obrazının yaranmasına imkan verir. Digər tərəfdən, bəstəkarın əsərlərinin formayaradıcılığında ifadəli prinsiplərinin dramaturji funksiyası əhəmiyyətli cəhətlərdən biridir. Bütün bunlar H.Xanməmmədovun əsərlərinin üslub xüsusiyyətlərini daha dərindən qavramağa imkan verir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Hacı Xanməmmədovun həyat və yaradıcılıq yolu. // "Kültür Evreni" jurnalı № 3, 2009. s. 202-208

2. H.Xanməmmədovun əsərlərində xalq musiqisindən və muğamdan istifadə məsələləri. / Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri, Bakı, 2015; XIV Beynəlxalq elmi-praktiki konfransın materialları. s. 130-133

3. H. Xanməmmədovun konsertlərinin janr və quruluş xüsusiyyətləri. // «Harmony» – международный музыкальный культурологический журнал. Выпуск № 14, 2015. s. 1-4

4. Hacı Xanməmmədovun mahnıları. // «Harmony» – международный музыкальный культурологический журнал. Выпуск № 15, 2016. s. 1-4
5. Hacı Xanməmmədovun yaradıcılıq üslubunun əsas xüsusiyyətləri. // "Musiqi dünyası" jurnalı 4/69, 2016. s. 68-69
6. Hacı Xanməmmədovun Xalq çalğı alətləri orkestri üçün əsərləri. // «Konservatoriya». Elmi jurnal № 3(33), Bakı, 2016. s. 65-69
7. Hacı Xanməmmədovun yaradıcılıq yolunun mərhələləri və musiqi üslubunun təkamülü. // «Harmony» – международный музыкальный культурологический журнал. Выпуск № 16, 2017. s. 1-4
8. Стилистические особенности творчества Гаджи Ханмамедова. / Научные исследования в сфере гуманитарных наук: Открытия XXI века. Материалы V Международной научно-практической конференции 18-19 мая 2017 года, Пятигорск, 2017. s. 156-159
9. Творческий путь композитора Гаджи Ханмамедова. //«Поиск» - международный научный журнал-приложения Республики Казахстан. Выпуск № 3(1), 2018. s. 73-76

**Севда Шыхсеид гызы Муталлимова**

## «Стилевые особенности творчества Гаджи Ханмамедова»
## РЕЗЮМЕ

Диссертация посвящена изучению творчества народного артиста Азербайджана, композитора Гаджи Ханмамедова (1918-2005), которое сформировалось в русле развития азербайджанской музыкальной культуры, вбирая в себя достижения национальной музыки. Его музыка отличается своеобразными стилевыми чертами, мелодическим мастерством. Г.Ханмамедов вошел в историю азербайджанской музыки как зачинатель инструментальных концертов для тара с симфоническим оркестром. В творчестве Гаджи Ханмамедова представлены многие жанры и формы музыкального искусства: это – оперетты, симфонические – в т.ч. концерты для тара, кяманчи, арфы, произведения для оркестра народных инструментов, в т.ч. Симфониетты, сюиты и т.д., а также вокальные сочинения, музыка к театральным спектаклям. Глубокое постижение интонационного строя фольклорных источников, народно-песенной традиции, ашыгского творчества, искусства мугама, с глубоко индивидуальным подходом к ним становится ведущим фактором почвенности музыки Г.Ханмамедова, характерной для всего его творчества.

Диссертация состоит из введения, 3-х глав, 4-х разделов, заключения и библиографии.

**I глава** диссертации – **«Этапы творческого пути Гаджи Ханмамедова».**

**II глава – «Инструментальный концерт в творчестве Гаджи Ханмамедова»** состоит из 2-х разделов: **2.1. «Особенности музыкального языка инструментальных концертов Г.Ханмамедова»; 2.2 «Концерт для арфы с симфоническим оркестром».**

**III глава – «Стилевые особенности вокальных сочинений и произведений для оркестра народных инструментов Г.Ханмамедова»** состоит из 2-х разделов: **3.1. «Песенное творчество Г.Ханмамедова»; 3.2 «Произведения для оркестра народных инструментов Г.Ханмамедова».**

В **заключении** даются выводы и обобщения проведенного музыкального анализа.

**Sevda Shikhsaid Mutallimova**

**“Stylistic features of creativity of Haji Khanmammadov”**
**SUMMARY**

The thesis is devoted to the study of the creativity of the People's Artist of Azerbaijan, composer Haji Khanmamedov (1918-2005), which was formed in the mainstream of the development of the Azerbaijani musical culture, incorporating the achievements of national music. His music is distinguished by peculiar style features, melodic skill. H.Khanmamedov entered the history of Azerbaijani music as the pioneer of instrumental concerts for tare with a symphony orchestra. In the creativity of Haji Khanmamedov, many genres and forms of musical art are represented: these are operettas, symphonic ones, including music. concerts for tare, kamancha, harp, works for the orchestra of folk instruments, incl. Symphoniettes, suites, etc., as well as vocal compositions, music for theatrical performances. Deep comprehension of the intonational structure of folklore sources, folk-song tradition, ashyg art, mugham art, with a deeply individual approach to them becomes the leading factor in the soil of the music of H.Khanmamedov, characteristic of all his creativity.

The thesis consists of an introduction, 3 chapters, conclusion and bibliography.

**Chapter I** of the thesis is **"Stages of Haji Khanmamedov's creative path".**

**Chapter II – "Instrumental concert in the work of Haji Khanmamedov"** consists of 2 chapters: **2.1. "Features of musical language instrumental concerts H.Khanmamedov"; 2.2 "Concerto for a harp with a symphony orchestra".**

**Chapter III – "Style features of vocal compositions and works for the orchestra of folk instruments by H.Khanmamedov"** consists of 2 chapters: **3.1. "Songmaking of H.Khanmamedov"; 3.2 "Works for Orchestra of Folk Instruments by H.Khanmamedov".**

In **conclusion,** conclusions and generalizations of the musical analysis are given.

Çapa imzalanıb: 12.11.2018.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

**На правах рукописи**

**СЕВДА ШЫХСЕИД гызы МУТАЛЛИМОВА**

# СТИЛЕВЫЕ ОСОБЕННОСТИ ТВОРЧЕСТВА ГАДЖИ ХАНМАМЕДОВА

**6213.01 – Музыкальное искусство**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени**
**доктора философии по искусствоведению**

**Баку – 2018**